# Qəbələnin 73 yaşlı qabaqcıl məktəbi

Bu, rayon mərkəzindən 25-30 kilometr aralıda ən böyük yaşayış məntəqələrindən biri olan Mıxlıqovaq kəndindəndir. Bəli, düz yetmiş üç il bundan öncə – 1946-cı ildə ibtidai məktəb kimi kiçik, uyğunlaşdırılmış binada fəaliyyətə başlamış, sonra az müddət 8 illik, 1953-cü ildən isə orta məktəb kimi fəaliyyət göstərmişdir. 65 ildə öz doğma kəndlərinin təhsil müəssisəsinin məzunu olan oğlan və qızlar da ötən günlərin sevinc dolu şirin xatirələrini heç vaxt unutmur, "ötən günə gün çatmaz, calasan günü-günə" deyirlər. Yuxarıdakı fikirləri və faktları yaxın günlərdə bu kənddən olan ağsaqqal bir tanışımla söhbətimdə öyrəndim və kənd məktəbinin qayğılarını, uğurlarını qələmə almaq məqsədilə yolumu Mıxlıqovaq kəndinin yetmiş üç yaşlı tam orta məktəbindən saldım. Dərs getdiyindən məktəbə xas olan hay-küydən, oğlan və qızların sevinc dolu gülüşlərindən, üz-üzə olan şirin söhbətlərindən əsər-əlamət yox idi. Direktor Maarif İsmayılovla öncə məktəbin geniş, yaşıllıqla, təbii gözəlliklə əhatə olunan həyətini gəzdik. Onun özü də bu təhsil ocağının yetirməsidir. 1971-ci ildə ovaxtki Azərbaycan Pedaqoji İnstitutunu qurtarıb Qəbələyə gəlib. Yemişənli kənd məktəbində bir müddət müəllim işlədikdən sonra gənc kadr kimi direktor vəzifəsinə irəli çəkilib, on dörd il məktəbə rəhbərlik edib. 1988-ci ildən isə Mıxlıqovaq kənd orta məktəbinə direktor təyin olunub. Üç il direktorluq fəaliyyətindən sonra Qəbələ Rayon İcra Hakimiyyətinin Mıxlıqovaq ərazi icra nümayəndəsi təyin olunub. On dörd il bu vəzifəsində bir məktəbin yox, bütövlükdə nümayəndəliyin, əhatəsində olan kəndlərin hamısının qayğıları ilə yaşayıb, çalışıb. 2005-ci ildə yenə onu Mıxlıqovaq kənd orta məktəbi öz qoynuna alıb. Ötən illərin pedaqoji təcrübəsi, ayrı-ayrı vəzifələrdə öyrəndikləri, üstəgəl özünün isə, verilən tapşırığa yüksək məsuliyyətlə yanaşmasının, nəticəsidir ki, Qəbələ rayonunun Fəzail Həmidov adına Mıxlıqovaq kənd tam orta məktəbinin sorağı ürəkaçan uğurları ilə hamıya yaxşı tanışdır.

Direktorun dediklərindən:
- 53 nəfər müəllimimiz 419 nəfər şagirdin təlim-tərbiyəsi ilə məşğul olur. Gənc kadrlarımızın sırası ilbeil genişlənir. İşə qəbulla əlaqədar imtahandan uğurla çıxıb məktəbimizdə ötən dərs ilində işə başlayan daha 2 müəllim - tarix fənnini tədris edən Nigar Nəsrəddinli və informatikadan dərs deyən Gülsənəm Hüseynova qısa vaxtda uşaqların da, valideynlərin də, müəllimlərin də sevimlisi olub. İlk diaqnostik qiymətləndirmədə müəllimlərimizin 70 faizi 40-60 bal toplaya biliblər. Ötən dərs ilinin nəticələri müəllimlərimizin necə işlədiklərini, şagirdlərimizin elmi biliklərin əsaslarına necə səylə yiyələndiklərini aydın göstərir. Öncə bildirim ki, məktəb üzrə əlaçılarımızın sayı keçən dərs ilində doxsana çatıb. Məktəbin məzunu Röyal İsmayılov qızıl medala layiq görülüb. 2018-2019-cu tədris ilində məktəbi qurtaran 31 nəfərin 16 nəfəri müxtəlif ali məktəblərə, 5 nəfəri orta ixtisas məktəblərinə qəbul olunmuşdur. Peşə məktəbinə, kolleclərə gedənlər də var. Şagirdlərimiz müxtəlif olimpiada və müsabiqələrdə də həmişə fəal iştirak edir, yaxşı nəticələr qazanırlar. Coğrafiya, riyaziyyat və biologiyadan fənn olimpiadalarında iştirak edən şagirdlərimizin nəticələri deməyə əsas verir ki, onlar həmin fənlərin daha dərindən mənimsənilməsinə nail ola biliblər. Hərbi-vətənpərvərlik tərbiyəsi indi ümumtəhsil ocağında gündəmdə duran əsas məsələlərdəndir. Hərbi dərslər müəllim Elbrus Nəbiyev tərəfindən bacarıqla tədris olunur.






Məktəb direktoru, həmçinin ayrı-ayrı müəllimlərlə söhbətlərimizdən onu da öyrəndik ki, burada müstəqilliyimizin simvolu olan dövlət rəmzlərinin hər bir şagird tərəfindən dərindən dərk edilməsi istiqamətində də məqsədyönlü iş aparılır. Bu ilin aprel ayında təhsil nazirinin 7 mart 2019-cu il tarixli əmrinin icrası olaraq məktəbdə müxtəlif tədbirlər həyata keçirilmişdir. Digər məktəblərdə olduğu kimi, burada da "oxu" gününə aid divar qəzetləri, bülletenlər hazırlanmış, sərgilər təşkil olunmuşdur. Məktəbdə sağlam mənəvi-psixoloji və təhlükəsiz mühitin yaradılması uşaqlarda müsbət davranış modelinin formalaşdırılması, ailə, məktəb, valideyn münasibətlərinin düzgün tənzimlənməsi, valideynlər arasında maarifləndirmə işinin gücləndirilməsi istiqamətində də qabaqlayıcı tədbirlərə xüsusi diqqət verilir. Bunun nəticəsidir ki, məktəbdən yayınma, şagirdlərin zərərli vərdişlərlə məşğul olmaları hallarına yol verilmir.

Artıq ikinci aydır ki, 2019-2020-ci dərs ili başlanıb. Sözügedən pedaqoji kollektiv də yüksək əhval-ruhiyyədədir. Bunun bir səbəbi ötən ilin uğurlarını cari dərs ilində daha da möhkəmləndirməsi üçün kollektivdə yüksək işgüzarlıq şəraiti yaradılmasıdırsa, digər əsas səbəbi müəllimlərə dövlətin yüksək qayğısıdır. Axı, bu ilin sentyabrından onların əməkhaqları artırılıb. Şagirdlər yenə pulsuz dərsliklə təmin edilib, məktəbin qış mövsümünə hazırlanmasına və digər məsələlərə yüksək qayğı ilə yanaşılır. Çalışırlar ki, 73 yaşlı məktəb 2019-2020-ci dərs ilində də öz qabaqcıllıq ənənəsinə sadiq qalsın.

**Rasim AMANOV,**
**"Respublika".**